MahadSunnah

هيثم سرحان

أحكام الأضحية

QURBANLIQ ƏHKAMLARI

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Allah ﷻ Öz qullarını qurbanlarla Ona yaxınlaşmağı sevəcək şəkildə yaratmışdır.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿لِكُلِّ أُمَّةٖ جَعَلۡنَا مَنسَكٗا لِّيَذۡكُرُواْ ٱسۡمَ ٱللَّهِ عَلَىٰ مَا رَزَقَهُم مِّنۢ بَهِيمَةِ ٱلۡأَنۡعَٰمِۗ فَإِلَٰهُكُمۡ إِلَٰهٞ وَٰحِدٞ فَلَهُۥٓ أَسۡلِمُواْۗ وَبَشِّرِ ٱلۡمُخۡبِتِينَ ٣٤﴾ [الحج : ٣٤]

“Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi olaraq verdiyi heyvanları (qurban kəsərkən) Allahın adını çəksinlər.” [1]

Bu qurbangahlardan biri də qurbanlıq heyvandır.

O İslamın açıq şüarlarından və təkid olunmuş sünnələrindəndir.

Qurban kəsməyin vaxtı bayram namazından sonra başlayır və təşriq günlərinin üçüncü günü gün batması ilə bitir.

Qurban ancaq davar (otlayan) heyvanlar üçün keçərlidir.

Bunlar:

Dəvə - İnək - Qoyun - Keçi

[1] əl-Həcc surəsi, 34-cü ayə

Toyuq, dovşan, maral və s. kəsmək doğru deyil.

Sağlam kök heyvan seçmək sünnədir. Bu da Allahın ﷻ bu ayəsinin təfsiridir:

قال تعالى: ﴿ذَٰلِكَۖ وَمَن يُعَظِّمۡ شَعَٰٓئِرَ ٱللَّهِ فَإِنَّهَا مِن تَقۡوَى ٱلۡقُلُوبِ ٣٢﴾ [الحج : ٣٢]

“Bax belə! Hər kim Allahın ayinlərinə hörmət etsə, (bilsin ki,) bu, qəlblərin təqvasındandır.” [2]

Qurbanlığın kəsilmə yaşına çatması şəriətdə vacibdir. O da:

- Dəvələrdə beş illik
- İnəklərdə iki illik
- Keçilərdə bir illik
- Qoyunlarda yarım illik (6 aylıq) olmalıdır.

Kəsilmə yaşından aşağı heyvan kök olsa belə qurban kəsmək olmaz.

Bu qüsurlu heyvanları kəsmək olmaz:

- Tək gözlü.
- Xəstəliyi aşkar olan.
- Axsaqlığı aşkar olan.
- Həddindən artıq arıq olan.

[2] əl-Həcc surəsi, 32-ci ayə

Qulaq, buynuz və quyruğun qüsuruna gəlincə, bu bəyənilmir. Amma səhih olmasının qarşısını da almır.

Elə isə çalışın ki, qurbanınız gözəl və hər bir qüsurdan salamat olsun. Və bilin ki, qurbanın qəbul olunması təqvaya bağlıdır.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿ قَالَ إِنَّمَا يَتَقَبَّلُ ٱللَّهُ مِنَ ٱلۡمُتَّقِينَ ٢٧ ﴾ [المَائِدَة : ٢٧]

“Allah ancaq müttəqilərdən (qurban) qəbul edər!”.[3]

[3] əl-Maidə surəsi, 27-ci ayə